# NDU-da mədəni irs və dayanıqlı turizm üzrə innovasiya müsabiqəsi keçirilib

Naxçıvan Dövlət Universiteti İnnovasiya Mərkəzində 5–6 may tarixlərində "Culture Flow Ideathon 2026" adlı ideya müsabiqəsi təşkil olunub.

Müsabiqənin əsas məqsədi mədəni irsin qorunması, tarixi abidələrin rəqəmsallaşdırılması və dayanıqlı turizm istiqamətində innovativ həllərin hazırlanması olub.

İdeafonda iştirak edən komandalar turizmin rəqəmsallaşdırılması, ekoloji və dayanıqlı turizm modelləri, texnologiya əsaslı turizm həlləri, tarixi abidələrin rəqəmsallaşdırılması, eləcə də mədəni irsin qorunmasına yönəlmiş innovativ yanaşmalar üzrə layihə konseptləri hazırlayıblar.
Tədbir çərçivəsində iştirakçılar mentor dəstəyi ilə ideyalarını inkişaf etdirərək final mərhələsində münsiflər heyəti qarşısında pitch təqdimatları ilə çıxış ediblər. Qafqaz Turizmin rəhbəri Mehman Şabanov, Jolly Travel və Naxçıvan Travel şirkətinin təsisçisi və direktoru, eyni zamanda Azərbaycan turizm bələdcisi və Dünya Turzm Bələdçilər federasiyasının üzvü Natiq Paşayev, Naxçıvan Muxtar Respublikasının Turizm Depertamentinin Statistika və araşdırmalar sektorunun müdiri Süleyman Rüstəmov, NDU Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri Gülxarə Əhmədova, Naxçıvanda STEAM Mərkəzinin direktoru Fuad Babayev və "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksinin direktoru Rəhim Rəhimov tələbələrin iki gün ərzində hazırladıqları layihələrin qiymətləndirilmə prosesində iştirak ediblər. Müxtəlif qurumlardan dəvət olunmuş münsiflər heyəti layihələrin innovativliyini, tətbiq imkanlarını və sosial təsirini əsas qiymətləndirmə meyarı kimi nəzərdən keçiriblər.

Qeyd edək ki, ideatonda ümumilikdə 10 komanda iştirak edib. Qiymətləndirmənin nəticələrinə əsasən "CyberHack" komandası I yerə, "Neuro Med" komandası II yerə, "VENUS" komandası isə III yerə layiq görülüb.

Seçilən layihələrin gələcəkdə inkubasiya proqramlarına yönləndirilməsi nəzərdə tutulur.


aim
Freeze
CULTURE FLOW IDEATHON
Mədəni İrs və Dayanıqlı Turizm üzrə İnnovasiya Müsabiqəsi
İSTİQAMƏTLƏR:
DİPLOM
DİPLOM
DİPLOM








Freeze


NAXÇIVAN İRS TURİZM LAYİHƏSİ: İCRA PROQRAMI VƏ
1. Rəqəmsal Platforma (Mobil Tətbiq & Veb)
2. Fiziki İnfrastruktur
3. Tur Paketləri
Dövlət & Qrant Dəstəyi
PPP & Xərclərin Azaldılması
MƏRHƏLƏLİ İCRA PLANI (TIMELINE)
1-ci Mərhələ
Rəqəmsal Bünövrə
2-ci Mərhələ
Fiziki İnteqrasiya
3-cü Mərhələ
Genişlənmə & Gəlir
TƏXMİNİ BÜDCƏ
Turist Axınının Artması
Zəngin Turist Təcrübəsi
İqtisadi Töhfə
İrsin Qorunması


QR kodu oxutmaqla turistlər audio-görüntünü əldə edə biləcəklər


aim


ASTRA
KOMANDASI
AI ilə tanı, müqayisə et, dəyərli öda.
Tarixi yaşa, məlumatlan, kəşf et.
Təcrübəni yaşa, irsi qoru.
Texnologiya ilə qorunan irs, hami üçün dəyərli səyahət.
GuardifyAI
KOMANDASI
AI ilə tanı
Səsli bələdçi
Məkan paylaş
İştirak et

